# Mündəricat


01 Ali Təhsildə Süni İntellekt İnqilabı: Bilməli olduqlarınız

02 Uşaq Mərkəzli Öyrənmə

03 Xorvatiyada Təhsil və Bacarıqlar

# Ali Təhsildə Süni İntellekt İnqilabı: Bilməli olduqlarınız

01

Dünya Bankı tərəfindən "Ali Təhsildə Süni İntellekt İnqilabı: Bilməli olduqlarınız" adlı hesabat hazırlanmışdır. Hesabatda süni intellektin ali təhsil sistemlərinə inteqrasiyasının əsas istiqamətləri, əldə olunan ilkin nəticələr, mövcud problemlər və gələcəyə dair tövsiyələr yer almaqdadır. Hesabatın əsas diqqət mərkəzində Latın Amerikası və Karib hövzəsi ölkələri dayansa da təqdim edilən nəticələr və analitik yanaşmalar qlobal miqyasda tətbiq oluna biləcək prinsipləri özündə ehtiva edir.
Hesabatda süni intellektin təhsildə səmərəli və etik prinsiplər əsasında tətbiqinin tədrisin fərdiləşdirilməsi, keyfiyyətinin artırılması, inzibati idarəetmənin optimallaşdırılması və sosial inklüzivliyin gücləndirilməsi baxımından əhəmiyyətli potensiala malik olduğu vurğulanır. Bu əsasda Süni İntelekt alətlərinin tətbiq sahələri 3 mühüm kateqoriya üzrə təqdim olunur: tələbə-mərkəzli alətlər, müəllim-mərkəzli alətlər və institusional yönümlü alətlər.
Tələbələr üçün nəzərdə tutulan Süni İntelekt alətlərinə virtual repetitor sistemi (AI Tutoring Systems), adaptiv öyrənmə platformaları (məsələn, Packback, Yellowdig) və fərdiləşdirilmiş təlim yolları daxildir. Harvard Universitetində aparılmış tədqiqatların nəticələrinə görə tədris prosesində Sİ-dən istifadə edən tələbələr ənənəvi aktiv öyrənmə mühitlərində iştirak edən həmyaşıdlarına nisbətən 2 dəfə daha çox bilik əldə etmişlər. Bənzər nəticələr Stanford və Nigeriyada həyata keçirilən təcrübələrdə də müşahidə olunmuşdur. Hesabatda qeyd olunur ki, süni intellekt əsaslı repetitor sistemləri (AI Tutoring Systems) tələbəyönümlü və fərdi yanaşmaya əsaslanan tədrisin həyata keçirilməsinə imkan verən texnoloji alternativ kimi "Bloom-un 2 Sigma Problemi"nin həllində istifadə olunur.
Müəllimlər üçün nəzərdə tutulan Sİ alətləri isə tədris və qiymətləndirmə proseslərinin effektivliyini artırmaqla yanaşı həm də tədqiqat fəaliyyətlərində dəstək təmin etməkdədir. Cadmus (Melburn Universiteti- Avstraliya) və Gradescope (Stanford Universiti- ABŞ) kimi platformalar avtomatlaşdırılmış qiymətləndirmə, plagiatın aşkarlanması və tələbəyə fərdi rəyin təqdim olunması imkanları ilə fərqlənir. Hesabatda qeyd edilir ki, "Gradescope"-dan istifadə tələbələrin akademik göstəricilərində 23% qədər irəliləyişə səbəb olmuşdur. Eyni zamanda "Research Rabbit", "Semantic Scholar" və "Julius" kimi tədqiqat dəstək alətləri müəllim-tədqiqatçılarda ədəbiyyat icmallarını adekvat şəkildə hazırlamaq, elmi əlaqələri vizuallaşdırmaq və potensial tədqiqat boşluqlarını müəyyənləşdirmək imkanı yaradır.
İnstitusional səviyyədə isə Sİ alətlərindən (AI Chatbot) istifadənin təsiri idarəetmənin planlaşdırılması və strateji qərarların qəbulunda əhəmiyyətli rol oynayır. Belə ki, "Penny", "TECgpt" və "uPlanner" (Peru) kimi platformaları tələbə məlumatlarını idarə etmək, tədris yüklərini balanslaşdırmaq, risk qrupunda olan tələbələri aşkar etmək və akademik göstəriciləri proqnozlaşdırmaq məqsədilə istifadə olunur. Məhz bu texnalogiyaların istifadəsi nəticəsində tələbələrin akademik müvəffəqiyyət göstəricilərində 1.3% artım müşahidə olunmuşdur.

Hesabatda həmçinin, ABŞ-nin Georgia State Universitində tətbiq olunan "Pounce chatbot"-u tələbələrin qəbul prosesində yol verdikləri inzibati xətaları aradan qaldırmaqla qeydiyyat nisbətlərində 3.3% artım təmin etdiyi qeyd olunur. Çilidə "ConsiliumBots" isə süni intellektlə dəstəklənən alqoritmlərlə tələbələrin düzgün proqramlara yönləndirilməsini təmin edir, nəticədə zəif uyğunluq nisbətini 38% azaldır və tələbələrin qeydiyyatdan keçmə ehtimalını üçqat artırır.

Hesabatda eyni zamanda, süni intellektin tətbiqi ilə bağlı bir sıra əhəmiyyətli çətinliklər də vurğulanır. Bu çətinliklər arasında infrastruktur və texnoloji bərabərsizliklər başlıca yer almaqdadır. Belə ki, müəllimlərin 80%-i Sİ alətlərindən istifadə qaydaları ilə bağlı aydın institusional siyasətlərin olmadığını, 83%-i isə tələbələrin Sİ alətləri tərəfindən təqdim edilən məlumatları tənqidi qiymətləndirməkdə çətinlik çəkdiyini bildirmişdir. Əlavə olaraq alqoritmik qərəz, fərdi məlumatların məxfiliyinin pozulması və etik-hüquqi çərçivələrin olmaması da qeyd edilən əsas risklər sırasındadır. Bundan başqa Sİ texnologiyalarından həddindən artıq asılılıq tələbələrdə düşünmə və problem həlletmə bacarıqlarının zəifləməsinə səbəb ola bilər. Bütün çətinliklərə baxmayaraq aparılan sorğuların nəticələri göstərir ki, 61% müəllim artıq tədrisdə süni intellektdən istifadə edir, 65% isə Sİ alətlərindən istifadəni fürsət kimi qiymətləndirir.



Bu problemlərin aradan qaldırılması məqsədilə hesabatda aşağıdakı strateji tövsiyələr təklif edilir:
1.Regionda Sİ üzrə tədqiqat və innovasiya fəaliyyətlərinin səmərəliliyinin artırılmasında dövlət və özəl sektorun birgə əməkdaşlığının vacibliyi;

2.Müəllimlər üçün sistemli və davamlı təlim proqramlarının planlaşdırılması;

3.Rəqəmsal bərabərsizliyin aradan qaldırılması üçün internet və texnoloji avadanlıqların əlçatanlığının təmin olunması;

4.Süni intellektin şəffaf və məsuliyyətli istifadəsini təmin etmək üçün etik, hüquqi çərçivələrin hazırlanması.

*Mənbə:* Molina, E., & Medina, E. (2025). AI Revolution in Higher Education. What you need to know. In Digital Innovations in Education. World Bank. World Bank.

# Uşaq Mərkəzli Öyrənmə

02

Cari ildə “HundrED” və “Montessori Global Education” təşkilatlarının birgə əməkdaşlığı ilə “Uşaq Mərkəzli Öyrənmə” hesabatı hazırlanmışdır. Hesabatda uşağın təlim prosesində passiv iştirakçıdan daha çox fəal kəşfiyyatçı və qərarverici subyekt kimi iştirak etdiyi təhsil modellərinə xüsusi diqqət yetirilir. Hesabatın məqsədi dünyanın müxtəlif ölkələrindən toplanmış təhsil innovasiyalarını ümumiləşdirərək praktik, miqyaslana bilən və müsbət nəticələr verən nümunələri təhsil ictimaiyyətinə təqdim etməkdir.

- uşağın fəal öyrənən kimi dəstəklənməsi;
- daxili motivasiya və maraqlara hörmət olunması;
- sərbəstlik daxilində müstəqilliyin təşviqi;
- müəllimin bələdçi və yönəldici rolu;
- inkişaf etdirici və öyrənməyə həvəsləndirici tədris mühiti

Bu prinsiplərə əsaslanan innovasiyalar uşağın öz maraq və ehtiyaclarına uyğun şəkildə öyrənmə motivasiyasını artırır, təlim prosesini daha mənalı və məqsədyönlü edir. Bu yanaşmanın tətbiqini nümayiş etdirmək məqsədilə hesabatda 14 təhsil təşəbbüsündən ibarət nümunəvi innovasiyalar təqdim olunur. Hər biri müxtəlif ölkələrdən və sosial-mədəni kontekstlərdən olan bu təşəbbüslər, təhsil sistemlərindəki imkan və məhdudiyyətlərə baxmayaraq, uşağın öyrənmənin mərkəzində olduğu, onun maraqları və daxili motivasiyasına əsaslanan, sosial və akademik inkişafı birləşdirən öyrənmə mühitlərinin necə qurula biləcəyini nümayiş etdirir.

Nepal “Canopy Nepal” - bu proqram  uşaqların mərkəzi olduğu tədris mühiti və öyrənmə üsullarını əhatə etməyə, onları yerli kontekstə uyğunlaşdırmağa yönəlir.  Proqram 140,000-dən çox şagirdə xidmət edir, kurikulumun şagirdin həyatına uyğunluğunu, sosial ədalətə əsaslanan pedaqogikanı və güclü icma tərəfdaşlığını təmin edir. Struktur dəyişikliyə nail olmaq üçün yerli hökumət rəsmiləri ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

Malayziya “CLASS ONE” platforması – fərdiləşdirilmiş onlayn dil tədrisinə yönəlmişdir. Bu proqram 10,000 şagirdə onların öyrənmə sürətinə uyğunlaşdırılan fərdi təlim təklif edir. Hər bir dərs uşaqların maraqlarına uyğun olaraq tərtib edilir. Müəllimlər uşaq yönümlü strategiyalar üzrə təlim alır və tədris prosesində  uşağın motivasiyasını artırmaq üçün şəxsiyyət yönümlü strategiyalardan istifadə edirlər.

Nigeriya “Giddy2School Education Initiative” proqramı – Afrikada məktəbəqədər təhsildən kənarda qalma hallarının aradan qaldırılması və təhsilə çıxışın artırılmasını hədəfləyən inklüziv bir təhsil modelidir.  Layihəyə ümumilikdə 6,9 min şagirdi əhatə edir və təhsil yalnız akademik biliklərin ötürülməsi ilə məhdudlaşmır, liderlik, cəmiyyətə xidmət və peşə bacarıqları kimi müxtəlif sahələri də əhatə edir.

Proqram həmçinin müəllimlərin peşəkar inkişafına diqqət yetirərək onları əməkdaşlığa əsaslanan uşaq-mərkəzli təhsil modelləri və layihə əsaslı metodlara işləməyə istiqamətləndirir.

Sinqapur “HoloTracker” proqramı – süni intellekt vasitəsilə uşaqların sosial-emosional inkişafını izləyir. 30,000-dən çox şagirdi əhatə edən bu proqram gündəlik müşahidələr apararaq və onları rəqəmsal formada qeydə alaraq, məsuliyyət, dözüm və yaradıcılıq kimi qeyri-akademik bacarıqları qiymətləndirir. Bu proqram müəllimlərin yalnız akademik nailiyyətlər əldə etməsinə deyil, həm də uşağın ümumi inkişafına diqqət yetirmək imkanı verir.

Uqanda “Flying Colors” proqramı – internetə çıxışı olmayan, resurs baxımından məhdud bölgələr üçün nəzərdə tutulmuş layihə əsaslı öyrənmə modelidir. 1,400 şagirdi əhatə edən bu model “Kolibri offline “platformasından istifadə etməklə şagirdləri real həyat problemləri üzərində düşünməyə sövq edir və problem həll etmə bacarıqları qazandırır.

İspaniya “Learnlife: Pathways to Possibilities” – proqramı imtahanlar əvəzinə fərdi inkişaf strukturuna malik təhsil modelini irəli sürür. Bu proqram vasitəsilə 2,000 şagird fərdi təhsil planları yaratmaq, layihələri tamamlamaq, tədqiqat aparmaq və təqdimatlar etməklə öz biliklərini nümayiş etdirirlər. Proqramın əsas məqsədi şagirdi  ömürboyu öyrənməyə hazırlamaqdır.



ABŞ “Content Creation Lab” proqramı – ABŞ-da pandemiya dövründə gəncləri təhsilə cəlb etmək məqsədiylə yaradılmışdır. Hal-hazırda proqram16 ölkədə 5,400-dən çox şagird üçün əlçatandır. Burada gənclər yalnız öyrənmək deyil, həm də öz kurslarını və kontentlərini dizayn edirlər. Bu proqram xüsusilə məzmun yaratmaq üçün ideyalar verə bilən bir model olub ənənəvi məktəb sistemində çətinlik çəkən və ya orada müvəffəq ola bilməyən uşaqlar üçün uğur əldə etməyi mümkün edir.
Niderland “Curiosity Clubs” proqramı – marağa əsaslanan qeyri-formal öyrənmə məkanları təşkil edir. Bu klublar şagirdlərin istəklərinə uyğun fəaliyyətlər təklif edir: kodlaşdırma, psixologiya, rəssamlıq, neyroelm və s. İştirakçılar öyrəndiklərini sərbəst şəkildə paylaşır və öz maraqlarını kollektiv şəkildə inkişaf etdirirlər.

Qlobal “Destination Imagination Challenge Experience” proqramı –komanda tərəfindən  layihə əsaslı STEAM problemlərinə həll yolları hazırlayan və sonra öz həllərini turnirlərdə canlı təqdim edən çağırışlardır. Burada şagirdlər öz əməkdaşlıq, yaradıcılıq və layihə əsaslı öyrənmə bacarıqlarını inkişaf etdirirlər. Bu proqramda tapşırıqların cavabı üçün vaxt məhduddur, bu da sürətli qərarvermə bacarığını stimullaşdırır.

İspaniya- Learnlife – “Pathways to Possibilities” proqramı – ənənəvi imtahanlardan və sinif strukturlarından uzaq fərdi öyrənmə imkanları təqdim edir. Şagirdlər öz maraqlarına uyğun layihələr hazırlayır, reflektiv gündəliklər yazır və öyrənmə tempini özləri müəyyənləşdirirlər.
Yeni Zelandiya “Play-Based Learning Observation Tool (P-BLOT)” proqramı – oyun əsaslı öyrənmədir. Bu platforma müəllimlər üçün nəzərdə tutulmuş müşahidə və təhlil vasitəsidir. Sinifdə oyun əsaslı öyrənməni izləyir və planlaşdırmağa kömək edir. Müəllimlər isə uşağın inkişafını məqsədyönlü şəkildə sənədləşdirmək və izləmək üçün istifadə edirlər.

Belçika “MyMachine” proqramı – şagirdlər tərəfindən yaradılmış ixtiraların, ideyalarının prototip şəklində reallaşdırıldığı 3 mərhələli bir modeldir. Bu mərhələlər: ideya yaratma (ibtidai siniflər), dizayn və prototipləşdirmə (orta məktəb və universitet tələbələri) formalarında həyata keçirilir.
Kolumbiya “PROYECTIVIDA”-proqram şagirdlərə “şəxsi həyat” layihəsi qurmaq imkanı yaradan proqramdır. Onlar məqsədlər müəyyən edir, öz güclü tərəflərini dəyərləndirir və gələcək planlarını strategiyaya çevirirlər. Bu xüsusilə orta məktəb səviyyəsində tətbiq olunur.

İsveçrə- “Street Racket – Anyone, Anytime, Anywhere” proqramı – sadə avadanlıqlarla və minimal qaydalarla keçirilən idman və sosial oyun modelidir. Məqsəd uşaqların fiziki aktivliyini artırmaqla yanaşı, əməkdaşlıq, problem həlletmə və qərarvermə bacarıqlarını inkişaf etdirməkdir.
Hindistan “Using Play to Better our World” proqramı – oyun əsasında sosial-emosional bacarıqların inkişaf etdirilməsi üçün istifadə olunan metodologiyadır. Şagirdlər oyun vasitəsilə empatiya, özünü ifadə, əməkdaşlıq və sosial məsuliyyət kimi dəyərləri öyrənirlər.

Bütün qeyd olunan proqramların tətbiqi təşəbbüslərinə baxmayaraq hesabatda bu sahədə çətinliklərin də olduğu qeyd olunur. Əsas çətinliklər arasında isə təhsil sistemlərində dəyişikliklərə qarşı müqavimət, müəllim hazırlığının zəifliyi, resurs çatışmazlığı və mövcud qiymətləndirmə sistemlərinin (məsələn, test əsaslı) mürəkkəbliyi göstərilir. Sadalanan problemlərin həlli üçün əsas şərtlər — müəllim hazırlığı, çevik kurikulum, alternativ qiymətləndirmə vasitələri və rəhbərlik səviyyəsində baxış dəyişiklikləridir. Hesabat göstərir ki, “Uşaq Mərkəzli Öyrənmə” yanaşması yalnız uşağa bilik vermək deyil, həm də onu düşünən, dəyər yaradan və cəmiyyətə fayda verən bir fərd kimi formalaşdırmaq üçün universal bir vasitədir.

Mənbə: HundrED. (2025). HundrED spotlight: Child-centred learning. https://hundred.org/en/collections/child-centred-learning

# Xorvatiyada Təhsil və Bacarıqlar

03

OECD tərəfindən Xorvatiya Respublikasının təhsil və bacarıq sistemini hər tərəfli şəkildə təhlil edən "Xorvatiyada Təhsil və Bacarıqlar" adlı hesabat hazırlanmışdır. Hesabat sənədində Xorvatiyanın təhsil siyasətləri, idarəetmə strukturları, maliyyələşmə mexanizmləri və nəticə göstəriciləri əsaslı şəkildə araşdırılmışdır.

Həmçinin hesabatda bildirilir ki, Xorvatiya məktəbəqədər, ümumtəhsil və ali təhsil səviyyələrində əsaslı islahatlar həyata keçirməkdədir. Belə ki, məktəbəqədər təhsil sahəsi üzrə iştirak səviyyəsində artım müşahidə olunmuşdur. Lakin, sosial-iqtisadi və coğrafi fərqliliklər səbəbindən aztəminatlı və kənd rayonlarında yaşayan ailələrin övladlarının məktəbəqədər təhsilə çıxışı məhdud olduğundan bu artım bərabər paylanmamışdır.  Xüsusilə Roma əsilli uşaqların məktəbəqədər təhsildə iştirakı ciddi şəkildə məhduddur. Belə ki, Xorvatiyada Roma əsilli uşaqlar arasında məktəbəqədər təhsilə cəlb olunma səviyyəsi 24% təşkil edir. Halbuki ümumi əhali üzrə bu göstərici 79%-dir. Eyni zamanda, 0-2 yaş qrupuna məxsus uşaqlarda ailənin gəlir səviyyəsinə görə məktəbəqədər təhsildə iştirak nisbətində də ciddi fərq müşahidə edildiyi bildirilir. Belə ki, yüksək və aşağı gəlirli ailələrə mənsub uşaqlar arasında məktəbəqədər təhsildə iştirak fərqi 24%-ə bərabərdir və bu göstərici OECD ölkələri ilə müqayisədə ən yüksək göstəricilərdən biri hesab olunur. Eyni zamanda Xorvatiya ümumtəhsil pilləsi üzrə təlim nəticələrinə görə Avropa İttifaqı üzv ölkələr arasında ən yüksək göstəriciyə sahibdir.

2022-ci il üzrə PISA beynəlxalq qiymətləndirmə nəticələrinə əsasən pandemiya dövründə bir sıra OECD-ə üzv ölkələrdə müşahidə olunan performansın kəskin aşağı düşməsi Xorvatiyada aşkarlanmamış, yüksək və aşağı nəticə göstərən şagirdlər arasında ciddi dəyişikliklər baş verməmiş, nəticələrin isə uzun müddət stabil olaraq qaldığı məlum olmuşdur.

Hesabatda sosial-iqtisadi statusun hələ də şagirdlərin təhsil istiqamətini müəyyənləşdirməkdə mühüm əhəmiyyət daşıdığı da qeyd edilir. Belə ki, PISA məlumatları göstərir ki, sosial-iqtisadi cəhətdən aztəminatlı ailələrdən olan şagirdlər peşə təhsilinə daha çox yönəldikləri halda, sosial-iqtisadi cəhətdən üstün olan şagirdlər gimnaziya və akademik proqramlara üstünlük verirlər. Bu seçim prosesində qiymətləndirmə sisteminin yalnız müəllimin verdiyi qiymətlərlə məhdudlaşdırılması, standartlaşdırılmış referans sistemlərinin və qiymət moderasiyasının olmaması, sosial-iqtisadi statusun təsirini daha da artırır və bərabərsizliyi dərinləşdirir.

Hesabatda ali təhsil sistemində də ciddi struktur problemlərin olduğu vurğulanır. Qeyd olunur ki, ali təhsildə tələbə qəbulunda əsasən Beynəlxalq standart təhsil təsnifatı (ISCED - International Standard Classification of Education) 6-cı səviyyəsi və daha yuxarı akademik proqramlara üstünlük verilir ki, bu da ali təhsilin strukturunda akademik yönümlü proqramların dominantlıq təşkil etməsinə gətirib çıxarır. Orta məktəbi bitirən şagirdlərin təxminən 70%-i ali təhsilə daxil olur, lakin bu yüksək qəbul nəticəsinə baxmayaraq, ali təhsili uğurla tamamlayanların sayı xeyli aşağıdır və tələbə itkisi 40-45% civarında dəyişir. Bundan əlavə, ali təhsili bitirən məzunların əmək bazarına inteqrasiyası digər Avropa ölkələri ilə müqayisədə peşə fəaliyyətinə daha gec başlayırlar ki, bu da əmək bazarında bacarıq çatışmazlığı problemi yaradır. Bu baxımdan ali təhsildə pedaqoji hazırlığın gücləndirilməsi istiqamətində OECD ölkələrinin təcrübəsinə əsaslanaraq birinci kurs tələbələri üçün sistemli dəstək proqramlarının yaradılması və tələbələrin fikir və ehtiyaclarının kurikuluma inteqrasiyası tövsiyə olunur.

Məsələn, Niderlandda universitet müəllimləri üçün məcburi pedaqoji kvalifikasiya (UTQ) tətbiq olunur və bu ali təhsildə tədrisin keyfiyyətinin artırılmasına xidmət edir. ABŞ-da Corciya universitetinin birinci kurs tələbələri üçün "co-requisite" dəstək proqramları uğurla tətbiq edilir. Hesabatda qeyd olunan çətinliklərin aradan qaldırılması istiqamətində Xorvatiya hökuməti geniş islahat paketi hazırlayıb. Belə ki, "Tam gün məktəb" konsepsiyası vasitəsilə şagirdlərin təhsildə daha uzun müddət qalması təmin edilir. Bacarığa əsaslanan kurikulum və modul əsaslı peşə təhsili proqramları isə təhsil proqramlarının əmək bazarına uyğunlaşdırılmasına xidmət edir. Eyni zamanda, Regional Kompetensiya Mərkəzləri vasitəsilə praktiki öyrənmə imkanları genişləndirilir.Ali təhsildə performansa əsaslanan maliyyələşdirmə modeli tətbiq olunur ki, bu da həm təhsilin keyfiyyətinin yüksəldilməsini, həm də elmi-tədqiqat fəaliyyətlərinin təşviq edilməsini hədəfləyir. Bundan əlavə yetkinlərin ömürboyu öyrənməsi üçün vauçer sistemi tətbiq edilib, lakin ilkin mərhələdə daha çox təhsilli və imkanlı şəxslərin bu fürsətdən yararlandığı müşahidə olunur.



Hesabatda Xorvatiyada məktəb təhsilinin maliyyələşdirilməsi əsasən dövlət büdcəsi hesabına həyata keçirilir və ölkədə təhsil sektoruna yönəldilən vəsaitin ən böyük payını təşkil etdiyi bildirilir. Son illərdə şagird sayının azalması fonunda maliyyə resurslarının daha səmərəli və məqsədyönlü istifadəsi, həmçinin xarici resursların cəlb edilməsi əsas prioritetlərdəndir. Məktəbəqədər və məktəb təhsilinin genişləndirilməsi üçün maliyyə strategiyalarının hazırlanması, dövlət və özəl sektorlar arasında xərclərin daha bərabər bölüşdürülməsi, ailələrin maliyyə yükünün azaldılması kimi məsələlər ön plana çıxır.

Xorvatiyada müəllimlərin və məktəb rəhbərlərinin peşəkarlığının artırılması və liderlik bacarıqlarının inkişafı üçün yeni yanaşmalar da hesabatda təklif olunur. Hesabatda Sloveniya və digər OECD ölkələrinin təcrübəsinə istinad edilərək, rəhbərlik üçün xüsusi təlim proqramlarının yaradılması, həmçinin məktəbdaxili liderlik və menecment vəzifələrinin bölüşdürülməsi tövsiyə olunur. Məsələn, Fransa və İngiltərədə məktəb rəhbərlərinə köməkçi vəzifələr yaradılıb, bu da gələcək liderlərin hazırlanmasına və məktəbin inkişafına töhfə verir.

Bundan əlavə, Xorvatiyada kurikulumun mərkəzləşdirilmiş idarəetmədən çıxarılması və müəllimlərin peşəkar mühakiməsinə daha çox etibar edilməsi istiqamətində islahatlar aparılır. Yeni standartlaşdırılmış qiymətləndirmə sisteminin tətbiqi müəllimlərə obyektiv istinad nöqtəsi verir və hökumətə islahatların nəticələrini izləməyə imkan yaradır. Peşə təhsili və təlimi (VET) üçün modul əsaslı kurikulumun hazırlanması, əsas kompetensiyaların möhkəmləndirilməsi və ixtisaslaşmaların diversifikasiyası əsas məqsədlərdəndir.

Son on ildə Xorvatiyada rəqəmsal təhsil texnologiyalarına da böyük investisiyalar qoyulduğu hesabatda vurğulanır. Belə ki, “E-Schools” layihəsi (2015-2023) çərçivəsində məktəblər İKT avadanlıqları, rəqəmsal tədris materialları və müəllimlər üçün İKT təlimləri ilə təmin olunmuşdur. Bu əsasda PISA 2022 nəticələrinə görə, Xorvatiyada şagirdlərin 88,5%-i (OECD ortalaması – 78,2%), müəllimlərin isə yalnız 36%-i İKT-dən istifadə üçün yaxşı hazırlıqlı olduqları qeyd edilmişdir (OECD ortalaması – 43%).

Hesabatda bildirilir ki, 2023-cü ildən etibarən Xorvatiyada ibtidai və aşağı orta təhsil səviyyələrində milli qiymətləndirmə tətbiq olunmuşdur. Bu təhsil keyfiyyətinin monitorinqi və islahatların effektivliyinin qiymətləndirilməsi üçün əhəmiyyətli addımdır. Lakin, məktəblərin və müəllimlərin fəaliyyətinin xarici qiymətləndirilməsi və milli səviyyədə tədqiqatlar hələ də məhduddur. OECD ölkələrinin təcrübəsində, məsələn, Cənubi Koreyada milli qiymətləndirmə nəticələri əlavə dəstəyin ayrılması və sistemin inkişafı üçün istifadə olunmuşdur.

Aşağıda hesabatda təklif olunan  siyasət tövsiyələri yer alır.

Müəllim və rəhbərlərin dəstəklənməsi: Təhsil keyfiyyətinin artırılması üçün müəllim və məktəb rəhbərlərinin peşəkar inkişafı və liderlik bacarıqlarının gücləndirilməsi, məktəblərdə və məktəbəqədər müəssisələrdə rəhbərlik strukturunun yenilənməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

- Sloveniya – məktəb rəhbərləri üçün xüsusi təlim proqramları;
- Şotlandiya – müəllim peşəkarlığının dəstəklənməsi;
- Avstraliya – müəllimlər üçün milli standartlara uyğun resurslar.

Orta və peşə təhsilinin diversifikasiyası: Akademik ali təhsildən kənar peşəyönümlü “orta səviyyəli” proqramların (ISCED 4 və 5) genişləndirilməsi, işəgötürənlərlə əməkdaşlıqda yeni təlim proqramlarının yaradılması və peşə imtahanlarının tətbiqi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

- İsveçrə – peşə imtahanları və əvvəlki təcrübənin tanınması;
- İrlandiya – “Human Capital Initiative” fondu;
- Avstraliya – “National Priorities and Industry Linkage Fund”.

Ədalətli imkanlar və dəstək: Xüsusilə aztəminatlı və həssas qruplar üçün maliyyə dəstəyinin və xidmətlərin hədəflənməsi, ailə gəlirinə əsaslanan məktəbəqədər təhsil haqlarının tənzimlənməsi, ali təhsildə sosial dəstəyin davamlı və daha geniş əhatəli olması. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:



Seçim və keçid siyasətləri: Şagirdlərin təhsil pillələri arasında keçidini asanlaşdırmaq üçün obyektiv və ədalətli seçim mexanizmlərinin yaradılması, müəllimlərin qiymətləndirmə bacarıqlarının artırılması, təhsil və karyeraya istiqamətləndirilməsinin gücləndirilməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

- Fransa – sinif şuraları və çoxaktorlu qərar mexanizmləri;
- Almaniya – onlayn karyera istiqamətləndirilməsi;
- İsveç – yetkinlər üçün universitetə qəbul üçün testlər.

İdarəetmə və maliyyələşdirmə: Təhsil sistemində idarəetmə və maliyyələşdirmə mexanizmlərinin sadələşdirilməsi, dövlət və özəl sektorlar arasında səmərəli əməkdaşlıq, resursların demoqrafik dəyişikliklərə uyğun bölüşdürülməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

İngiltərə – 18 yaşdan yuxarı bütün təhsil növləri üçün vahid maliyyələşdirmə çərçivəsi; bəzi OECD ölkələri – dövlət-özəl əməkdaşlığı.

Məlumatların toplanması və istifadəsi: Təhsil keyfiyyəti və şagirdlər barədə fərdiləşdirilmiş məlumatların toplanması və təhlilinin gücləndirilməsi, monitorinq və qiymətləndirmə sistemlərinin təkmilləşdirilməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

Cənubi Koreya – milli qiymətləndirmə nəticələrindən istifadə edərək əlavə dəstək və sistemin inkişafı; bəzi OECD ölkələri – fərdiləşdirilmiş təhsil məlumat bazaları.

Məktəbəqədər təhsil üzrə tövsiyələr: Kadr çatışmazlığının aradan qaldırılması, köməkçi vəzifələrin yaradılması, təlim və peşəkar inkişaf imkanlarının genişləndirilməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

Fransa və İngiltərə – köməkçi heyət vəzifələrinin yaradılması.

Bərabər imkanlar: Aztəminatlı və kənd yerlərində yaşayan uşaqlar üçün çıxışın artırılması, ailə gəlirinə əsaslanan ödəniş siyasəti, həssas qruplar üçün əlavə dəstək. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

Almaniya – gəlirə əsaslanan ödəniş siyasəti.

İdarəetmə: Mərkəzləşdirilmiş planlaşdırma və monitorinq, milli uşaq bağçaları şəbəkəsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

OECD ölkələrində mərkəzləşdirilmiş məktəbəqədər təhsildə planlaşdırması.

Ümumtəhsil üzrə tövsiyələr: Müəllimlərin və rəhbərlərin peşəkar inkişafı, liderlik və idarəetmə strukturunun yenilənməsi, çevik və şagirdyönümlü kurikulum. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

- Sloveniya – rəhbərlik təlimləri;
  Şotlandiya – müəllim peşəkarlığı.

Bərabər imkanlar: Keyfiyyətli təhsilə çıxış, obyektiv qiymətləndirmə və seçim. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

Kolumbiya – balanslaşdırılmış qiymətləndirmə sistemi.

İdarəetmə: Məktəb şəbəkəsinin optimallaşdırılması, resursların səmərəli bölüşdürülməsi.

Ali Təhsil üzrə tövsiyələr-Keyfiyyət və əmək bazarına uyğunluq: Proqramların əmək bazarına uyğunlaşdırılması, performansa əsaslanan maliyyələşdirmə, pedaqoji hazırlığın gücləndirilməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

- İrlandiya – “Human Capital Initiative”;
- Avstraliya – “National Priorities and Industry Linkage Fund”.

Bərabər imkanlar: Regionlararası və gender fərqlərinin azaldılması, sosial dəstək mexanizmləri. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:

Almaniya – sosial dəstək və təqaüdlər.

İdarəetmə: İdarəetmə strukturunun sadələşdirilməsi, regional ali təhsil imkanlarının gücləndirilməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:




OECD ölkələrində ali təhsil konsolidasiyası.
Bacarıq siyasəti və ömürboyu təhsil- keyfiyyət və müxtəliflik: Yetkinlər üçün təlim imkanlarının genişləndirilməsi, işəgötürənlərlə əməkdaşlıqda yeni proqramlar. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur: İsveçrə – peşə imtahanları və tanınma sistemi.
Bərabər imkanlar: Regionlarda yaşayan böyüklər üçün təlim imkanlarının artırılması, maliyyə dəstəyinin hədəflənməsi. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:
İngiltərə – yetkinlər üçün universal təhsil hüququ.
İdarəetmə: Bacarıq siyasətində mərkəzləşdirmə, dövlət qurumları arasında koordinasiya, məlumatların təhlili. Hesabatda bu istiqamətdə aşağıdakı ölkələrin uğurlu təcrübələri nəzərə alınması qeyd olunur:
OECD-nin təqdim etdiyi bu analitik hesabat Xorvatiyanın təhsil sistemində əldə etdiyi uğurları və mövcud boşluqları balanslı şəkildə əks etdirir, eyni zamanda beynəlxalq təcrübələr əsasında praktik siyasət tövsiyələri formalaşdırır. Xüsusilə demoqrafik azalma, regionlararası bərabərsizliklər və əmək bazarının çevikliyinə olan ehtiyac fonunda təqdim edilən tövsiyələr Xorvatiyanın təhsil sisteminin davamlı inkişafında strateji yol xəritəsi rolunu oynaya bilər.

*Mənbə:* OECD (2025), Education and Skills in Croatia, Reviews of National Policies for Education, OECD Publishing, Paris, https://doi.org/10.1787/bace00c4-en.